# Müzəffər Komandanın zəfər zirvəsi



Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsində qazandığımız parlaq Zəfərin ikinci ilini qürurla qeyd etdiyimiz gün, 8 noyabrda Qarabağın baş tacı, qalibiyyət qalamız Şuşadan bir daha bəyan etdi ki, "Şuşa Azərbaycan xalqının ürəyidir, canıdır, hər bir azərbaycanlı üçün müqəddəs yerdir".

Baş sərkərdəmiz bu sözləri ilə həm də Şuşanın ölkəmizin ən ali şəxsinin qəlbində hansı əlahiddə məqamda, zirvədə yerləşdiyini bir daha təntənəli şəkildə nümayiş etdirdi.

Qalib lider İlham Əliyevin son iki ildə mədəniyyət paytaxtımıza on dəfədən çox səfər etməsi, bayramlarımızda, tarixi günlərimizdə məhz yolunu Qarabağın baş tacından salması ölkə rəhbərinin qəlbindəki müstəsna Şuşa sevgisinin təcəssümüdür.

Özünün 60 illik yubileyində, ötən ilin 24 dekabrında da Prezident İlham Əliyev Zəfərimizin qürur zirvəsi olan Şuşada idi və aldığı yubiley təbriklərinə görə Azərbaycan xalqına təşəkkürünü məhz Cıdır düzündən çatdırırdı.

Qalib sərkərdə, "Şuşa hər birimizi özünə çəkir", deyərək, hər dəfəsində Şuşaya böyük sevgi və məhəbbətlə gəldiyini söylədi: "Düzdür, mən burada - Şuşada müxtəlif tədbirlərin açılışlarında iştirak etmişdim. O tədbirlər ki, Şuşanın Azərbaycan xalqına, Azərbaycan mədəniyyətinə məxsus olduğunu bir daha təsdiqləyir. Amma eyni zamanda hər dəfə Şuşada hansısa tədbir nəzərdə tutulduqda böyük həvəslə, böyük sevgi ilə, məhəbbətlə Şuşaya gəlirdim və hesab edirdim ki, bu günü də mən məhz burada - Şuşada hər birimiz üçün əziz olan Cıdır düzündə qeyd etməliyəm və bunu edirəm".

## "Şuşasız bizim işimiz yarımçıq olar"

Qalib lider İlham Əliyevin milli ruhumuzun pərvəriş tapdığı bu pak ünvana olan xüsusi münasibətinin, rəğbətinin təməli illərin o üzünə, hələ Ulu Öndər Heydər Əliyevin Şuşada milli dirçəlişin, qədim şəhərimizin mədəni yüksəlişinin əsasını qoyduğu gənclik illərinə dayanırdı.

1982-ci ildə Ümummilli Liderin mədəniyyət paytaxtımıza etdiyi tarixi səfərlərin hər ikisində İlham Əliyev də Ulu Öndərlə bərabər Şuşada idi və Heydər Əliyevin Şuşada həyata keçirdiyi mühüm uğurların fəxarətli şahidi idi.

Ümumiyyətlə, Azərbaycanda birinci dəfə hakimiyyətdə olduğu illərdə Ümummilli Liderin Şuşanın hərtərəfli inkişafı ilə yanaşı, oradakı erməni məkrinə qarşı necə mübarizə apardığının və azərbaycançılıq məfkurəsinin təməllərini qoyduğunun da əyani şahidi idi İlham Əliyev.



Və o da təsadüfi deyildi ki, Müzəffər Ali Baş Komandan Vətən müharibəsində savaşın milli koduna çevrilən, "Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar" söyləyərək Azərbaycanın hünərli igidlərinə bu müqəddəs ünvanı səmt göstərmiş, ay-ulduzlu, üçrəngli bayrağımızın Şuşa zirvələrində dalğalandırılaraq bütün Qarabağa kölgə salması sayəsində qalibiyyət əldə edəcəyimizin ismarışını vermişdi.

Şuşanın işğaldan azad edilməsi, həm də İlham Əliyevin müqəddəs ata nəsihətinə əməl edərək böyük xoşbəxtliyə nail olması demək idi.

Müzəffər Ali Baş Komandan 2020-ci il noyabrın 8-də Şəhidlər xiyabanından Şuşanın azadlığını xalqımıza müjdələyəndə bu məqamı qürurla söyləmişdi: "Mən bu gün, eyni zamanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!"

## Şuşanın azadlığına uzanan Zəfər yolu

İlham Əliyevin Ali Baş Komandanlığı ilə rəşadətli Azərbaycan Ordusu Vətən müharibəsində cəmi 44 gün ərzində düşməni torpaqlarımızdan qovdu. İgidlərimiz dünya hərb tarixində görünməmiş misilsiz şücaət göstərərək Şuşanı azadlığına qovuşdurdular. Ali Baş Komandanın "İrəli" əmri ilə vətənin harayına tələsən Azərbaycanın mərd oğulları öz canları, qanları bahasına Şuşaya, bu gün bizim müqəddəs yol saydığımız, Zəfər cığırını açdılar.

Uca sıldırımları bir həmlədə aşan cəsur oğullarımız düşməni yalın əllə boğaraq mənfurların murdar nəfəslərini müqəddəs torpaqlarımızdan birdəfəlik yox etdilər.

"Bu gün Şuşaya gələn hər bir insan, sadəcə olaraq, məəttəl qalır - bu alınmaz qalanı Azərbaycan övladları necə aldılar. Hər dəfə Şuşaya Zəfər yolu ilə gedəndə hər bir insan bu haqda fikirləşir...", - deyə, Şuşanın böyük qəhrəmanlıqla azad edildiyini xatırladan Müzəffər Ali Baş Komandan İlham Əliyev söyləyir ki, "... Mən isə deyirəm, əsas məsələ bu deyil, siz fikirləşin bizim əsgər və zabitlərimiz o meşələrdən necə keçiblər, o yolu onlar açıblar və bu yola mənim tərəfimdən Zəfər adı verilməklə biz bu şanlı Zəfərimizi bir daha tariximizdə həkk etdik".

Bəli, İlham Əliyev və onun igid əsgərlərinin açdıqları bu şanlı Zəfər yolu hər qarışına Azərbaycanın vətənsevər övladlarının qanı ilə imza atdığı zəfərə, azadlığa, vətənin bütövlüyünə uzanan pak yoldur.

## Milli qürur günümüz

İlham Əliyevin baş sərkərdəliyi ilə aparılan Vətən müharibəsinin parlaq Zəfərlə sonlandırılması, həm də Azərbaycan xalqının adını, tariximizi xəyanətkarların vurduğu qara ləkələrdən təmizlədi.

Prezident İlham Əliyevin söylədiyi kimi, Birinci Qarabağ müharibəsindəki məğlubiyyət xalqımızı mənəvi cəhətdən sarsıtmışdı: "O vaxt antimilli ünsürlər hakimiyyəti zəbt etmişdilər, hakimiyyət uğrunda mübarizə aparmışdılar, Şuşa kimi alınmaz qalanı faktiki olaraq Ermənistana, ermənilərə təslim etmişdilər hakimiyyətə gəlmək üçün və belə də oldu".

1992-ci il mayın 8-də antimilli ünsürlərin xəyanəti sayəsində Şuşanın itirilməsi böyük faciə idi. Tarixi faktdır ki, məhz o xəyanətkarların hakimiyyətinin satqın və naşı siyasəti, səbəb olduqları siyasi böhran nəticəsində digər rayonlarımız da işğal altına düşmüşdü.

44 günlük Vətən müharibəmiz sayəsində sapı özümüzdən olan baltaların xəyanətkar əməllərinin xalqımız üçün ağır və acı nəticəsi, bais olduqları məğlubiyyət qalibiyyətlə əvəzləndi. İnsan gücünün xaricində olan əzmlə Şuşanın azad edilməsi, düşmənin əzici məğlubiyyətə uğrayaraq kapitulyasiya aktına imza atmağa məcbur edilməsi milli qürurumuzu da şah zirvələrə ucaltdı.

## Azad Şuşa

2020-ci il noyabrın 8-i Zəfər Günü kimi Azərbaycan tarixinə əbədi yazıldı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin "Əziz Şuşa, sən azadsan", - deyə milli himn kimi qulaqlarımızda səslənən möhtəşəm müjdəsi bizi qalib xalq etdi, illərin Vətən həsrətindən qurtardı.

Şuşanın qəhrəmanlıqla düşmən tapdağından azad edilməsindən dərhal sonra isə qurucu lider İlham Əliyev bu tarixi şəhərin əzəmətini bərpa etməyə başladı.

Şuşada böyük quruculuq işlərinə start verildi və işğaldan azad edilmiş torpaqlar arasında ən genişmiqyaslı bərpa işləri də məhz Qarabağımızın mirvarisində aparılmağa başlanıldı.

Azadlığının üzərindən sadəcə iki ay keçdikdən sonra, 2021-ci il yanvarın 14-də İlham Əliyev Şuşaya Zəfər yolu ilə səfər etdi. Bu tarixi səfərdə qalib sərkərdə illərdir didərgin həyatı yaşayan Natəvanın, Üzeyir bəyin, Bülbülün güllələnmiş büstlərini də özü ilə bərabər Şuşaya gətirərək onları əzəli yurdlarına qovuşdurdu, bununla da tezliklə doğma sakinlərinin Şuşaya qovuşacağının rəmzi mesajını verdi.

Şuşanı mədəniyyət paytaxtımız elan edən dövlət başçısı mütəmadi olaraq bu qədim şəhərimizə səfər edərək buradakı tarixi, mədəni, dini irsimizin bərpası ilə bağlı mühüm işlərin gerçəkləşdirilməsinin də uğurlu başlanğıcını qoydu.

İllərdən sonra Qarabağın qürur qalasındakı məscidlərimizdən azan sədası ucaldı, 30 il ərzində düşmənin qurutduğu bulaqlarımız yenidən çağladı, Cıdır düzündə bayram tonqalları alovlandırıldı.

## Şuşa Azərbaycan ruhunu qorudu

Dövlət başçısı İlham Əliyev Şuşada tarixən var olan mədəni ənənələrimizi də uğurla bərpa etdi. 2021-ci ilin may ayında xalqımızı ölkəmizin tarixində əlamətdar günlərdən olan və uzun fasilədən sonra Şuşada, Cıdır düzündə keçirilən "Xarıbülbül" festivalından salamlayan İlham Əliyev söylədi ki, "Biz bu gözəl ənənəni bərpa etdik və bundan sonra "Xarıbülbül" festivalı Şuşada hər il keçiriləcək".

"Xarıbülbül" festivalındakı çıxışında qalib sərkərdə onu da vurğuladı ki, "ermənilər nə qədər çalışsalar da, Şuşadan Azərbaycan ruhunu silə bilmədilər. Bəli, mənfur düşmən tərəfindən binalar dağıdıldı, məscidlərimiz dağıdıldı, tarixi abidələrimiz dağıdıldı. Ancaq Şuşa Azərbaycan ruhunu qoruya bildi".

2021-ci il avqustun 30-da 1982-ci ildə Ulu Öndər tərəfindən açılışı edilən və 2021-ci ildə Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Vaqifin möhtəşəm məqbərəsinin önündə Prezident İlham Əliyevin iştirakı ilə Vaqif Poeziya Günlərinə də start verildi.

Azərbaycanın mədəniyyət paytaxtı çox qısa zaman ərzində Cənubi Qafqazın ən mötəbər tədbirlərinə evsahibliyi edən ünvanına çevrildi.

2021-ci ildə Şuşada, müstəqil Azərbaycan dövlətinin 15 İyun - Qurtuluş Günündə Prezident İlham Əliyevlə qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"ni imzalamaları isə tarixi şəhərimizin şanına şan qatdı.

Vətən müharibəsində həm də Azərbaycan xalqının birliyi, həmrəyliyi Zəfər çaldı. Elə bu baxımdan bu il Dünya Azərbaycanlılarının V Qurultayının da qalibiyyət zirvəmiz Şuşada keçirilməsinin xüsusi rəmzi mənası var idi.

## Hər bir azərbaycanlı üçün müqəddəs yer

Artıq son günlərini yaşadığımız 2023-cü il isə başdan-başa "Şuşa ili" kimi qeyd etdik, təməli 1752-ci ildə Pənahəli xan tərəfindən qoyulan qədim şəhərimizin 270 illik yubileyini böyük təntənə ilə keçirdik.

Şuşa təkcə Azərbaycan xalqının deyil, bütün türk dünyasının qürur ünvanıdır və buna görə də Qarabağın baş tacı gələn il "Türk Dünyasının Mədəniyyət Paytaxtı" olmaq kimi müstəsna missiyanı da şərəflə yerinə yetirəcək.

Quruculeader İlham Əliyevin birbaşa nəzarəti altında gündən-günə Şuşa dirçəlir, inkişaf edir, tarixi əzəmətini özünə qaytarır. Bütün bunlar isə Qarabağın büllur qəsri Şuşanın Azərbaycanın ən ali şəxsinin qəlbində hansı əlahiddə məqamda bərqərar tapdığının əyani göstəricisidir. Zəfər sərkərdəsinin özünün də ifadə etdiyi kimi: "...Demişdim ki, Şuşasız bizim qələbəmiz yarımçıq olacaq. Əminəm, Azərbaycan xalqı yaxşı anladı ki, bizim son məqsədimiz, müharibənin son məqsədi Şuşanı işğaldan azad etməkdir. Təkcə ona görə yox ki, Şuşa Qarabağın tacıdır. Ona görə yox ki, Şuşanın strateji yerləşməsi faktiki olaraq onun azad olunmasından sonra müharibənin taleyini həll edirdi. O cümlədən ona görə ki, Şuşa Azərbaycan xalqının ürəyidir, canıdır, hər bir azərbaycanlı üçün müqəddəs yerdir".

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

Azərbaycan.- 2022.- 24 dekabr.- S.19.